# Ruhumuzda işıq yandıran şeirlər

## Bu gün Xalq şairi Rəsul Rzanın anadan olmasının 105 ili tamam olur

**Bu gün Xalq şairi Rəsul Rzanın anadan olmasının 105 ili tamam olur. 1910-cu ilin mayında Göyçay şəhərində ziyalı ailəsində anadan olan ustadı ehtiramla xatırlayaraq, məşhur misraları ilə ruhunu yad etməyi özümə borc bildim:**

*Mübarizə bu gün də var, yarın da,*
*Mən də onun ən ön sıralarında.*

Bu misralar neçə illərdir ki, çoxumuzun həyat devizinə və mübarizə simvoluna çevrilib. Axşamlar batıb, səhər yenidən doğan günəşi də elə bu ümidlə qarşılayırıq. Dünyanın təzadlarına, qəfil zərbələrə, ağlagəlməz dönüşlərə də elə bu misralardan gələn inamla boylanır, gücümüzü, qüvvəmizi itirmirik. Xalq şairi Məmməd Araz 1970-ci ildə Rəsul Rza haqqında yazırdı: "Rəsul Rzanın yaradıcılığı bir qitəni başdan-başa öyrənməyə bənzəyir. Ancaq bu qitədə xeyli ayaq dəyməmiş cığırlar var, sehirli çeşmələr, pusquda duran vulkanlar var... Sənətin mürəkkəb və keşməkeşli yollarında Rəsul Rza mənim üçün öz yüksək amalına xidmət etməyin ən gözəl örnəyi olmuş, ən gözəl örnəyidir və ən gözəl örnəyi kimi də qalacaq".

İllər Məmməd Arazın fikirlərini dəfələrlə təsdiqlədi. Ötən əsrdə-70-ci illərin sonu-80-ci illərin əvvəllərində mərhum şairimiz Vaqif İbrahimin rəhbərliyi ilə Bakıda gənc yazıçıların ədəbi birliyi fəaliyyət göstərirdi. Tanınmış şair və yazıçılarla görüşümüz olardı. Onların iştirakı ilə bizlərin yazıları müzakirə edilərdi. Günlərin birində qonağımız Xalq şairi Rəsul Rza oldu. O görüşdən yaddaşıma yazılan bəzi məqamları xatırlayıram. Bizim çox şairlə görüşlərimiz olmuşdu. Deyim ki, gənclər həvəslə, bir-birlərinə aman vermədən öz şeirlərini oxuyardılar. Amma o gün heç kəs Rəsul müəllimin qarşısında şeir oxumağa cəsarət etmədi. Çünki Rəsul Rza heləm-helem tərif deməzdi. Hər yazarı, hər şeiri bəyənməzdi. Sözün söz qədrini bilərdi. O, gənclərin qaygıkeşi idi, amma sənətdə güzəşti sevməzdi. Bəziləri Rəsul müəllimi sərt, acıdil adam kimi xatırlayırlar. Bu fikirlə heç razılaşmıram. Əslində Rəsul Rza düz danışan, məramı gələndə susmağı bacarmayan, söz atının yüyənini əlində möhkəm saxlamağa qadir qüdrətli bir sərkərdə idi və söz meydanında atını elə səyirdirdi ki, kimin hünəri çatardı bu düz yolu ayrı səmtə yönəltsin!? Onda o, Rəsul Rza olmazdı. Xalq şairi, unudulmaz Xəlil Rza Ulutürkdən eşitmişdim: "Rəsul Rza Azərbaycan poeziyasının sükanını çox qüdrətlə döndərərək onu tərənnümçülükdən xilas etdi". Rəsul Rza bəşəri bir şair, böyük insan, nəhəng şəxsiyyət idi. Hərdən elə qürur duyuram ki, biz nəsil onun müasirləri olmuşuq. Heç unutmadığım bir məqam var. Hər dəfə onu yazmaqdan, danışmaqdan sanki zövq alıram. İndiki Heydər Əliyev sarayında, deyəsən, Səməd Vurğunun yubileyi idi. Fasilədə gördüm ki, Anarın bir tərəfində şeirlərini çox sevdiyim Nigar xanım Rəfibəyli, digər tərəfində də ustad Rəsul Rza gedirlər. Hər ikisi çox qəribə tərzdə Anara söykənərək, sanki bir varlıqda birləşmişdilər. Bu ürəkaçan, göz sevindirən üçlük könlümdə bir qibtə doğurdu: "Belə insanların övladı olmaq nə qədər xoşbəxtlikdir". İllər keçdi, hər iki şairimiz dünyasını dəyişdi. Anarın valideynləri barəsində yazdığı "Sizsiz" əsərini oxudum. Həssas yazıçımızın kədəri, işıqlı xatirələri, ömrün çeşid-çeşid günləri, illəri könlümdə yurd saldı. Məndə indi də anlamadığım başqa duyğular oyatdı. Sanki Azərbaycan mənəviyyatının silsilə ucalığını gördüm. O zirvədə qoşa dayanan Rəsul Rza-Nigar Rəfibəyli taleyinin mənasını duydum. Belə bir övladın valideynləri olmaqdan böyük bəxtiyarlıq yoxdur. Anar onların barəsində yazırdı: "Nə həyat, nə ölüm onları ayıra bildi".



Əlbəttə, biz nəslin bir çox nümayəndəsi kimi Rəsul Rza ilə ilk tanışlığım orta məktəb illərində olub. Ədəbiyyat dərsliyində şəklini görmüşdüm. Şeirlərini həvəslə əzbərləmişdim. Hələ də xüsusi intonasiya ilə dediyim "Mən hansı bir insana bənzədim ki Lenini, həm xalqın xidmətçisi, həm də rəhbəri oldu" misralarının təbii ahəngi yaddaşımdan silinməyib. Bəziləri "Lenin" poemasına ağız büzsələr də, müəllifi az qala divana çəksələr də, bu, yanlışlıqdır. Hər bir şair həm də öz zəmanəsinin güzgüsüdür. İndi özlərini "demokrat" adlandıranlar da gərək unutmayalar ki, bizim hər birimiz sovet dövrünü yaşamışıq, "şərəfli" komsomolçulardan, kommunistlərdən olmuşuq. Bu bizim səhvimiz, günahımız deyildi. Bu, zamanın tələbi idi. Bu, quruluşun elə bir reallığı idi ki, heç kim ondan kənar düşə bilməzdi. Məhz o dövrlərin əks-sədası olan həmin poemada əslində yalan, riya yoxdur. Mənimlə razılaşın ki, o misraların çoxunda inkaredilməz həqiqət var idi. Bu başqa məsələ ki, zaman, quruluş dəyişdi. Poeziya ki dəyişmədi, tarix ki pozulmadı və tarixi təkcə tarixçilər yazmırlar ki... Yaradıcılığın müxtəlif sahələrində də bu öz əks-sədasını tapır. Mən Lenin haqqında yazanları qınağa çəkənlərin özlərini qınayıram. Bəli, Rəsul Rza Lenin haqqında poema yazıb, amma o, 1937-ci ilin repressiyalarında bir kimsəni bada vermək üçün "donos" yazmayıb, üzə durmayıb. Qəzadan salamat çıxmaq üçün heç bir qələm əhlinə, sənətkara "xalq düşməni" damğası vurmayıb. Əlbəttə, bu, çox geniş mövzudur. Mən, sadəcə, böyük şairlə bağlı öz duyğu və düşüncələrimi qələmə alıram. Və bu yerdə unudulmaz heykəltaraşımız Münəvvər Rzayevanın bir söhbətini xatırlayıram. Söyləyirdi ki, Mikayıl Müşfiqin abidəsini tamamlasam da, qəbul etdirə bilmirdim. Müxtəlif bəhanələrlə işimi geri qaytarırdılar. Bir dəfə təsadüfən abidəni görən Rəsul müəllim onu çox bəyəndi və soruşdu ki, niyə bu sənət incisi emalatxanada qalıb? Komissiyanın növbəti yığıncağında Rəsul Rza da bilərəkdən iştirak edib. Yenə də köhnə fikirlər səslənib. Rəsul Rza dərhal ayağa qalxaraq, üzünü komissiya üzvlərinə tutub: "Müşfiqdən bir misra deyə bilərsiniz?" Hamı susub. "Bəs onda hardan bilirsiniz ki, bu abidə Müşfiqi ifadə etmir? Mən Müşfiqlə baş-ayaq bir yerdə yatan adamam, abidədəki Müşfiqin gözlərinə baxanda elə bilirəm indi səsini də eşidəcəyəm. Bir vaxt atalarınız Müşfiqi bada verdi, indi də siz onun abidəsini rədd edirsiniz!.." Rəsul Rzanın ittihamı ağır, amma həqiqət idi. Sonralar Bakıda, Xızıda və digər yerlərdə Müşfiqin abidəsi qoyuldu. Bu hadisələrin reallaşmasında Rəsul Rzanın xidmətini Münəvvər xanım minnətdarlıqla xatırlayırdı.

Bir maraqlı faktı da ədəbiyyatşünas alim Abbas Zamanovdan eşitmişdim. Ötən əsrin 60-cı illərində ermənilər Naxçıvan sevdasına düşüblər. Moskvadakı dayaqları Mikoyana arxalanaraq, Nəqşi-cahanımızı ələ keçirmək istəyiblər. Mötəbər bir məclisdə qəfildən söz istəyib tribunaya qalxan Abbas Zamanov bu məsələyə toxunaraq, ermənilərə havadarlıq edənləri ciddi tənqid atəşinə tutub. Təbii ki, Abbas müəllimin bu cəsarətli addımı və iradı Moskvadan gələnləri rahatsız etməyə bilməzdi. Bu səbəbdən də onu həm partiya sıralarından, həm də işdən çıxarıblar. Hətta bəzi insanlar ondan uzaq gəzməyə çalışıblar. "O günlərdə daim mənimlə olan, məni müdafiə edən yalnız Rəsul Rza idi" - deyirdi Abbas Zamanov. Hətta böyük şairimiz uzaqgörənliklə söyləyirmiş ki, Abbas, vaxt gələcək, xalqımız səni qəhrəman adlandıracaq.

Tənqidçi Qulu Xəlilov ötən əsrin 60-cı illərində yazırdı: "Rəsul Rza çox az əsərlərində, bəlkə də heç birində deməyib ki, vətən, sən mənim canımsan, gözümsən. Lakin onun bütün yaradıcılığı xalqa, vətənə xidmətin ən layaqətli nümunəsidir... Rəsul Rzanın şeirimizə gətirdiyi forma poeziyamızda çox az, bəsit şəkildə işlənib. Rəsul Rza bu formanı gətirməklə şerimizin ifadə tərzini çox-çox zənginləşdirib".

Azərbaycan dilinin saflığı, qorunması, işlədilməsi uğrunda mübarizə aparan fədakar insanlardan biri məhz Rəsul Rza olub. Sözdən rəssam kimi istifadə edərək, yurdumuzun əzəmətli təsvirini məharətlə yaradıb:

*Azərbaycan şahindir,*
*Dimdiyi göy sularda,*
*Qanadları göylərdə.*

Belə bir kişi şairin və şah vüqarlı insanın "Mən işığam, qaranlığın qənimi" deməsi, "Dünya yuxusuzdur, ağlaya bilmirəm" yazması ruhumuzda işıq yandırır. Həsrəti ömründən uzun olan Rəsul Rza məsləhəti:

*Vaxt var ikən*
*Elə yaşa, elə çalış,*
*Bir gün sən olmayanda,*
*Hər kəsə aydın görünsün*
*Yerində qalan boşluq.*

Nə qədər dəqiq və sərrast yazıb. Bu gün o boşluq necə də görünməkdədir, ustad! Yenidən səni oxuyuruq. Ölümündən bir gün qabaq yazdığın son şeirini:

*Günlər var çeşid-çeşid:*
*İnciklisi bu yanda,*
*Fərəhlisi o yanda.*
*Belə olurmu demək,*
*Ömrün, günün sonunda...*

Rəsul Rza 1 aprel 1981-ci ildə vəfat edib. Onun həyata "əlvida" dediyi günün zarafat və yumorla əlaqədar 1 aprelə təsadüf etməsi də mənalıdır. Rəsul Rza poeziyasının pərəstişkarları şairin bu əbədi gedişini də zarafat kimi yozdular. Bu yerdə xalq yazıçısı Anarın sözlərilə yazımı tamamlayıram: " Rəsul Rza yaradıcılığını tarixin arxivinə verməyə can atanlar tələsməsinlər. Aprelin 1-də vəfat edən Rəsul Rza mayın 19-da anadan olub".

**Flora XƏLİLZADƏ,**
**əməkdar jurnalist**

